

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

7 noyabr
2025-ci il,
cümə
№ 203 (7030)
Qiyməti
60 qəpik


## Zəfər ayının 7-ci günü



İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli,

Translate Tweet

12:30 PM · Nov 7, 2020 · Twitter Web App



İlham Əliyev
@azpresident

Replying to @azpresident

Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

12:30 PM · Nov 7, 2020 · Twitter Web App

# ZƏFƏR YOLUmuz daim açıq olsun!




Bax səh. 2

## Zəfərimizin 5 yaşı: Qardaş ölkələr zəfərimizə sevinir

Bax səh. 3

### Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır

Bax səh. 2

### Çində Azərbaycan iqtisadiyyatının təqdimatı

Bax səh. 4

### “ACWA Power” Xəzər dənizinin suyunu duzsuzlaşdıracaq

Bax səh. 5

### 2026-cı ildə vergi siyasətinin əsas istiqamətləri

Bax səh. 5

### Gürcüstan-Avropa: gərginlik artır...



Bax səh. 7

### Aİ-nin “Metsamor planı”: enerji təhlükəsizliyi, yoxsa yeni geosiyasi məqsədlər?



Bax səh. 6

# ZƏFƏR YOLUmuz daim açıq olsun!

Tarixin bu günündə - 2021-ci il noyabr ayının 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Zəfər yolunun açılışı baş tutub.

Azərbaycan üçün noyabr ayı zəfər ayıdır. Xalqımız son 200 illik tarixinin ən böyük qələbəsini 2020-ci ilin noyabr ayında qazanıb. Həmin ilin noyabrında hər birimiz üçün yalnız bir şəhər, yaşayış məskəni kimi əhəmiyyət daşıyan, həm də mənəviyyat simvolu kimi qəbul etdiyimiz Şuşa təxminən otuz illik işğaldan sonra azadlığına qovuşub. 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanat imzalanmaqla 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərimiz rəsmən təsdiqlənib.

Tarixi Qələbəmizdən cəmi bir il sonra - 2021-ci il Zəfər ayının 7-ci günündə isə qürurlu xalqımız daha bir əlamətdar hadisəyə şahidlik edib - Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Zəfər yolunun açılışı baş tutub.







## Azərbaycan xalqı və dövləti işğalla barışmadı

Azərbaycan xalqı və dövləti İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə heç vaxt ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması faktı ilə barışmayıb. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində işğal faktına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi daim ölkə gündəminin mərkəzində saxlanılıb. Bu strateji xəttə uyğun olaraq Azərbaycan danışıqlar prosesində fəallıq göstərməklə yanaşı, həm də iqtisadiyyatını gücləndirməklə milli gücünü artırıb, müasir ordu quruculuğunu diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Dövlətimizin başçısı yüksək tribunalardan qətiyyətlə bildirirdi ki, Azərbaycan istənilən yolla ərazi bütövlüyünü təmin etməyə nail olacaq. Oldu da!

Ermənistanın təxribatlarına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

Vətən müharibəsində əldə olunan Qələbənin miqyası çox böyükdür. Ordumuz cəmi 44 gün ərzində düşməni kapitulyasiyaya məruz qoydu. Xatırladaq ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Sükürataz yüksəkləri və daha 5 adsız yüksəklik işğaldan azad olunub. Bunun ardınca üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq noyabrın 10-dan sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə də atılmadan Azərbaycana təhvil verilib. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülüb. Bununla da ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla təmin edilib.

44 günlük müharibədən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifə Qarabağda separatizm yuvasını dağıtmaq və ölkənin bütün ərazisində suverenliyimizin tam təmin edilməsinə nail olmaq idi. Bu ümummilli ideyanı isə Müzəffər Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində reallaşdırmağa nail oldu. Ordumuz bu əməliyyatları yüksək peşəkarlıqla həyata keçirdi. Qarabağda separatizm yuvasını dağıtmaq üçün cəmi 23 saat kifayət etdi. 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibədə qazanılan Zəfərə bərabər növbəti parlaq Qələbə idi. Qarabağda suverenliyi bərpa edən Azərbaycan bununla mahiyyət etibarı ilə 10 Noyabr Zəfərini tamamlamış oldu.




## Çətin relyef şəraitində qısa müddətdə həyata keçirilən layihə

Tarixin bu günündə, 2021-ci il noyabrın 7-də istifadəyə verilən Zəfər yolu o yoldur ki, Vətən müharibəsi günlərində Şuşa fatehləri buradan keçən çığırla meşələri, qayaları aşaraq əziz Şuşamızı mənfur düşmənin işğalından azad etməyə nail olmuşdular. Şuşanın geri qaytarılması ilə düşmən döyüşləri davam etdirməyin mənasız olduğunu anladı və noyabrın 10-da Ermənistan üçün təslimçilik aktı sayılan üçtərəflli Bəyanat imzalandı. Şuşanı azad etməklə igid əsgər və zabitlərimiz mümkünsüz görünəni reallığa çevirməyə nail olmuşdular. Təsadüfi deyildir ki, zamanında sərt dağ yamacları ilə uzanan cığırın Zəfər yoluna çevrilməsi həm də böyük Qələbəmizin rəmzi, şəhidlərimizin həmişə qəlbimizdə yaşayacaq xatirələrinə dərin ehtiramın əlaməti kimi dəyərləndirilir.

Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib. Müharibə başa çatdıqdan sonra cəmi 1 il ərzində icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da NATO nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.

AZƏRTAC xəbər verir ki, NATO nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul olunmasının əhəmiyyətini vurğulayan Türkiyənin alyansdakı daimi nümayəndəsi Basat Öztürk dövlətimizin başçısının NATO mənzil-qərargahına səfərlərini məmnunluqla xatırladı.

O, Azərbaycanın hazırkı inkişafının təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə daha da gücləndiyini vurğuladı.

Qonaqlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdılar.



Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd etdi və əldə olunmuş razılaşmaların regionun inkişafı üçün geniş imkanlar açdığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində NATO mənzil-qərargahına səfərlərini xatırladaraq qeyd etdi ki, Əfqanıstandakı əməliyyatlara dəstək Azərbaycan-NATO əməkdaşlığının vacib hissəsi olsa da, ölkəmizlə alyans arasında regional inkişaf, enerji təhlükəsizliyi və digər istiqamətlər üzrə əməkdaşlıq da gündəmdədir.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırıldığını və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlığı vurğuladı. Bu xüsusda ölkəmizlə alyans arasında əlaqələrin genişləndirilməsinin roluna toxundu.

Prezident İlham Əliyev Azərbaycanın ötən əsrin əvvəllərində müstəqilliyini qazandıqdan bəri əsas məqsədimizə çatdığımızı - torpaqlarımızın işğaldan azad olunduğunu vurğulayaraq qeyd etdi ki, ordumuzun müasirləşdirilməsi prosesi bundan sonra da davam edəcək.

Dövlətimizin başçısı NATO nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına ümidvarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanın NATO-nun dəyərli tərəfdaşı olduğu vurğulandı, Silahlı Qüvvələrimizin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətləri, bu xüsusda ölkəmizin regional nəqliyyat və logistika mərkəzi kimi töhfələri yüksək qiymətləndirildi, sülhməramlılarımızın Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olduğu qeyd edildi.

Azərbaycanın alyans üzvləri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinə toxunuldu, NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində ölkəmizin 1994-cü ildən alyansın proqramlarında fəal iştirak etdiyi bildirildi.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının perspektivləri müzakirə olundu, regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Zəfərimizin 5 yaşı: Qardaş ölkələr zəfərimizə sevinir



## Qarabağ qələbəsi bütün dostlarımızın qürurudur

2020-ci il həm Azərbaycan tarixinə, həm də regionun həyatına yeni ştrixlər qazandırdı - möhtəşəm Qələbə torpaqların azad olunmasına, ədalətin, tarixi həqiqətin və beynəlxalq hüququn bərpasına yol açdı. Bu, yaxın-uzaq keçmişdə demək olar ki, ilk hadisə idi - ilk dəfə idi ki, bir dövlət öz gücü ilə 30 ilə yaxın davam edən ədalətsizliyi aradan qaldırır, beynəlxalq sənədlərin icrasını təmin edirdi.

Əlbəttə, bu haqq yolunda irəliləmək asan olmadı. Uzun illər ərzində bəzi dövlətlər və beynəlxalq təşkilatlar Azərbaycanın haqlı səsini eşitmək istəmədilər, işğal faktına göz yumdular, ədaləti siyasi maraqlara qurban verdilər. Lakin Azərbaycan xalqı və dövləti bütün bu çətinliklərin öhdəsindən gəldi. Qələbəmiz isə düşmənləri sarsıtdığı qədər bütün dost və qardaşlarımızı qürurlandırdı. Azərbaycan bu haqq savaşında tək deyildi - həmin çətin illərdə, günlərdə bizimlə eyni fikirdə olan, haqqın və ədalətin yanında duran qardaşlarımız, dostlarımız da vardı - Türkiyə, Pakistan, Özbəkistan, Qazaxıstan, Səudiyyə Ərəbistanı və onlar kimi başqa dövlətlər həm siyasi, həm mənəvi, həm də diplomatik müstəvidə Azərbaycanın yanında oldular, dünya ictimaiyyətindən haqq səsimizi eşitmələrini tələb etdilər. Qələbə xəbəri gələndə bu, həmin ölkələrdə də sevinclə, qürurla qarşılandı. Azərbaycanın Zəfəri təkcə bizim deyil, bütün dost və qardaş xalqların qələbəsi kimi qəbul edildi.

## Qələbənin 5 ili: dəyişən reallıqlar, dəyişməyən dostluq

Bu gün artıq o tarixi qələbədən 5 il keçir. Bu beş il ərzində Azərbaycan təkcə itirilmiş torpaqlarını bərpa etməklə kifayətlənməyib, həm də regionda yeni siyasi, iqtisadi və diplomatik reallıqlar yaradıb. Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri Azərbaycanın dövlətçilik gücünü bir daha nümayiş etdirdi. Bu proseslərdə də qardaş və dost ölkələr hər zaman bizim yanımızda oldular. Onların həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstəyi bu illər ərzində dəyişməz qaldı.

Qələbənin 5 illiyi münasibətilə Azərbaycan Prezidentinə ünvanlanan təbrik məktubları, dost ölkə liderlərinin Zəfər Günü ilə bağlı çıxışları, eləcə də bir sıra yüksək səviyyəli səfərlər bu dostluğun sarsılmazlığını bir daha təsdiqləyir. Yeri gəlmişkən, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud və başqa ölkələrin rəhbər şəxsləri Azərabycan Prezidentinə və xalqına təbrik məktubu ünvanlayır, öz xoş arzularını çatdırırlar. Türkiyə mətbuatı bu ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər paradında iştirak üçün ölkəmizə səfər edəcəyini yazıb. Eləcə də, Pakistanın paytaxtı İslamabadın mərkəzi hissələrində 8 Noyabr - Zəfər Günü münasibətilə müxtəlif şüarlar yerləşdirilib. Binalardan birinin üzərinə Azərbaycanın dövlət bayrağı proyeksiya olunub. Binanın üzərində, həmçinin "Azərbaycan Respublikasının Zəfər Günü" şüarı yazılıb. Qeyd olunmalıdır ki, bu təbriklər yalnız diplomatik jest deyil - bu, bir ruhun, bir inancın, bir tarixi birliyin təzahürüdür. Bu qardaş sevincinə qardaşın sevinməsinin təntənəsidir...

## Azərbaycan həqiqətin və ədalətin tərəfdarı kimi

Azərbaycanın mübarizəsi yalnız ərazi uğrunda mübarizə olmayıb. Bu, eyni zamanda həqiqətin və ədalətin müdafiəsi idi. Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərinə sadiq qalıb, BMT qətnamələrinin icrasını tələb edərək, qanuni haqqını müdafiə edib. Bu prinsiplər bu gün - Qələbədən, zəfərdən sonra da dəyişməyib. Azərbaycan bu gün də ədalətin tərəfdarı, haqlının müdafiəçisidir. Biz əzilənin yanında yer alır, əzənin qarşısında dayanırıq. Hətta ən çətin dövrlərdə, xüsusən də qlobal pandemiya zamanı Azərbaycan dövlətinin göstərdiyi humanist mövqe bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyin gücləndirilməsi, kasıb ölkələrə vaksin yardımlarının təşkili Azərbaycanın humanist diplomatiyasını nümayiş etdirdi. Azərbaycan heç vaxt güclünün deyil, haqlının tərəfində olub. Bu gün də biz eyni yolda - sülh, ədalət və insani dəyərlər yolundayıq. Azərbaycanın regional və qlobal miqyasda qazandığı hörmətin kökündə məhz bu prinsipial mövqe dayanır.

## Qardaş dəstəyi: birliyin əməli təzahürü

Artıq Qarabağ azaddır - artıq Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam bərpa olunub. Bu gün işğaldan azad edilmiş torpaqlarda yenidənqurma, bərpa işləri görülür. Bu prosesdə də Azərbaycan qardaş dəstəyini hiss edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərində bir çox dost ölkələr fəal iştirak edirlər.

Məsələn, Qazaxıstanın təşəbbüsü ilə Füzulidə "Abay Kunanbayev" adına məktəb inşa edilir. Bu layihə təkcə təhsil müəssisəsi deyil, həm də iki xalq arasında mədəni əlaqələrin simvoluna çevrilib.

Özbəkistan Şuşada "Mirzə Uluqbəy" adına tam orta məktəb tikərək, Qarabağın dirçəlişinə töhfə verib.

Qırğızıstan tərəfindən isə Ağdamda sosial infrastruktur layihələrinin həyata keçirilməsi planlaşdırılır.

Türkiyə isə bu prosesin bütün mərhələlərində Azərbaycanın yanında, Azərbaycanın əsas mənəvi dəstəkçisi olub. Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən infrastruktur layihələrinin mühüm hissəsində Türkiyə şirkətləri iştirak edir. Füzuli və Zəngilan hava limanlarının inşası, "Dost Agropark" kimi birgə layihələr bu əməkdaşlığın nümunəsidir.

Pakistan da siyasi müstəvidə Azərbaycanın ən sadiq tərəfdaşlarından biri kimi çıxış edir. Bu ölkə hələ Vətən müharibəsi dövründə Ermənistanın işğal siyasətini pisləyərək, açıq şəkildə Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdi. Bu gün də Pakistan şirkətləri Qarabağda investisiya layihələrinə maraq göstərirlər. Bütün bu faktlar bir daha sübut edir ki, Zəfər təkcə Azərbaycanın deyil, həm də dost və qardaş ölkələrin ortaq sevincidir.

## Zəfərimizin sevinci dost ölkələrdə də hiss olunur...

Azərbaycan 2020-ci ildə haqqın, ədalətin və milli qürurun rəmzi olan bir Qələbə qazandı. Bu qələbə hərbi müstəvidə məhdudlaşmamalıdır - bu qələbə həm də mənəvi planda regionun tarixini dəyişdi.

Bu gün, Qələbənin 5-ci ildönümündə, Azərbaycanın yanında olan qardaş dövlətlər bir daha sübut edirlər ki, dostluq və qardaşlıq yalnız çətin günlərdə deyil, sevincli günlərdə də özünü göstərməlidir. Türkiyədən Pakistana, Qazaxıstandan Özbəkistana qədər bütün bu ölkələr Azərbaycanın uğuruna sevinir, bu Zəfəri öz Zəfəri kimi qəbul edir. Azərbaycanın yaratdığı bu birliyə, bu dostluq ruhuna dünyada çox az nümunə tapmaq olar. Çünki bu, siyasi maraq birliyi deyil - mənəvi və tarixi köklərlə bağlı olan bir qardaşlıq birliyidir. Zəfərimizin sevinci bu gün artıq təkcə Bakının deyil, Ankaranın, İslamabadın, Daşkəndin, Astananın və bütün türk-müsəlman dünyasının sevincidir. Bu qardaşlıq yaşadıqca, bu birliyin dayaqları möhkəmləndikcə, Azərbaycanın qələbə ruhu da regionun sülh və sabitlik sütununa çevriləcək.

***P.İSMAYILOV***

# Zəfər Gününün 5 illiyi münasibətilə hərbi orkestrlərin müşayiəti altında yürüşlər keçirilib







Cari ilin planına əsasən, Zəfər Gününün 5 illiyinin qeyd olunması münasibətilə noyabrın 6-da Bakı, Sumqayıt, Naxçıvan, Xankəndi, Şuşa və Laçın şəhərlərinin mərkəzi küçə, prospekt və meydanlarında hərbi orkestrlərin müşayiəti ilə yürüşlər təşkil olunub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, yürüşlərdən əvvəl Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Hərbi orkestrlərin vətənpərvərlik mahnılarını ifa etmələri, həmçinin marşların sədaları altında keçirilən yürüşlər vətəndaşlarımız tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.




# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Astanada beynəlxalq forumda iştirak edir




2025-ci il 6-7 noyabr tarixlərində Qazaxıstanın paytaxtı Astana şəhərində "Milli statistika sistemlərinin rəqəmsal transformasiyası"mövzusunda beynəlxalq forum və forum çərçivəsində Qazaxıstanın dövlət statistika qurumunun yaradılmasının 105 illiyi mərasimi keçirilir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.

Forum zamanı innovativ informasiya texnologiyalarının tətbiqi (süni intellekt, maşın öyrənməsi və s.), məlumatların idarə olunmasına yeni yanaşmalar, onların təhlükəsizliyi və məxfiliyinin təmin edilməsi də daxil olmaqla rəsmi statistikanın modernizasiyası, eləcə də kadr potensialının möhkəmləndirilməsi və təkmilləşdirilməsi, texniki infrastrukturun və statistik proseslərin transformasiyasının zəruriliyi, artan çağırışların birgə həlli yolları və istifadəçi ehtiyaclarının ödənilməsi imkanlarına dair aktual məsələlərlə bağlı müzakirələr aparılır. Tədbir milli statistika sistemlərinin rəqəmsal transformasiyası, məlumatların keyfiyyəti və müasir dünyada onların artan keyfiyyəti, rəsmi statistikada irihəcmli məlumatlardan istifadə potensialı, dövlət idarəetməsində süni intellekt texnologiyalarından istifadə, istifadəçi və məlumat istehsalçıları ilə kommunikasiya mövzularında sessiyalardan ibarətdir.

Tədbirin 1-ci günü Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Toğrul Ələlov təqdimatla çıxış edərək Azərbaycanda keyfiyyətin idarə olunması sisteminin tətbiqi, metaməlumatlar və şəffaflıq, keyfiyyətə nəzarət cədvəlləri, ev təsərrüfatları büdcələri tədqiqatında və istehlak qiymətləri indeksinin hesablanmasında ilkin məlumatların keyfiyyətinin yoxlanılması, inzibati məlumatlar və onların statistik məlumatların keyfiyyətində rolu sahəsində görülmüş işlər barədə tədbir iştirakçılarına geniş məlumat verib.

# Çində Azərbaycan iqtisadiyyatının təqdimatı

## Beynəlxalq idxal sərgisində ölkəmizin investisiya və biznes potensialı nümayiş etdirilir

Çinin Şanxay şəhərində 8-ci Çin Beynəlxalq İdxal Sərgisi işə başlayıb. Noyabrın 10-dək davam edəcək sərgi Çin Sədri Si Cinpinin təşəbbüsü və himayəsi ilə keçirilir, xarici məhsulların və xidmətlərin Çin bazarına girişini təşviq etmək məqsədi daşıyır. Çinin Ticarət Nazirliyinin, Şanxay meriyasının və Çin Beynəlxalq İdxal Sərgi Bürosunun təşkilatçılığı ilə keçirilən sərgiyə 155 ölkə və beynəlxalq təşkilatdan təxminən 4 mindən çox iştirakçı qatılıb.

Sərgidə Azərbaycanı Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə dövlət qurumlarının rəhbər şəxsləri və biznes icmasının üzvləri təmsil edir. Şahin Mustafayev bildirib ki, iki ölkə arasında münasibətlər yeni mərhələyə qədəm qoyub və ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlığın qurulması ticarət və investisiya əməkdaşlığına güclü təkan verib. Azərbaycan Cənubi Qafqaz regionunda Çinin etibarlı tərəfdaşıdır.

### "Made in Azerbaijan" stendi ziyarətçilərdə böyük maraq yaradır

Azərbaycanın İqtisadiyyat Nazirliyi və Çindəki Ticarət Nümayəndəliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə təşkil edilən vahid ölkə və kommersiya stendlərində milli brendlərimiz nümayiş etdirilir. Həmçinin, buradakı Azərbaycn pavilyonunda aqrar-sənaye, kənd təsərrüfatı, turizm, innovasiya, "yaşıl enerji" və digər sahələrdə ölkəmizin potensialını əks etdirən təşviqedici materillar da yer alır. Azərbaycan pavilyonunda əks etdirilən videoçarxlar, əyani materiallar və müxtəlif inforqrafikalar ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti, o cümlədən potensial investisiya layihələri haqqında tədbirdə iştirak edən xarici dövlət və biznes icmasında zəngin təəssürat yaradır.

"Made in Azerbaijan" stendində isə sərgi ziyarətçilərinə Azərbaycan şirkətlərinin istehsal etdikləri şərab brendi və digər alkoqollu və alkoqolsuz içkilər, qənnadı məmulatları, fındıq, nar şirəsi, konservlər və s. məhsullar nümayiş olunur. Stenddə həmçinin Çindəki ticarət evlərində nümayiş olunan yerli məhsullarımız da yer alıb. Bundan başqa, xidmət ixracının dəstəklənməsi məqsədilə Xəzəryanı regionda qida sənayesi iştirakçılarının ən əsas görüş yerlərindən birinə çevrilən yerli "InterFood Azerbaijan" sərgisi haqqında məlumat verilir və xarici şirkətlərin sözügedən sərgidə təmsil olunması təşviq olunur.

### Azərbaycan Ticarət evləri ixracın simvoluna çevrilir

Stenddə Ələt Azad İqtisadi Zonasında, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında və Naxçıvan Muxtar Respublikasında investorlara təklif olunan imtiyazlar, ölkəmizin nəqliyyat-tranzit potensialı, turizm perspektivləri təqdim olunur ki, bu da Azərbaycanın regional logistika və nəqliyyat qovşağının mərkəzi kimi strateji potensialı barədə dərin təsəvvürlər yaradır. "Invest in Azerbaijan" ekspozisiya bölməsində ziyarətçilərə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA), Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Dövlət Neft Fondunun (DNF) fəaliyyət istiqamətləri barədə məlumatlar, vizual və çap materialları da təqdim olunur. Bununla yanaşı, Azərbaycan-Çin iqtisadi əməkdaşlığının mühüm platforması kimi Çində fəaliyyət göstərən Azərbaycan Ticarət evləri xüsusi ziyarətçi kütləsi toplamaqdadır.

Qeyd edək ki, indiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycan Ticarət evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib. Ticarət evləri ölkəmizdə istehsal edilən qida və içki sənayesinə aid 50-yə yaxın məhsulun nümayiş olunması, milli ixrac qabiliyyətinin imkanlarının təqdimi olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ticarət evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında kənd təsərrüfatı sahəsində faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Həmçinin, Ticarət evlərinin sayının artması Azərbaycan və Çin arasında qarşılıqlı ticarət mübadiləsinin də həcminin artmasını təşviq edir.








### İxrac missiyaları aqrar sahədə əməkdaşlığı artırır

Artıq bir neçə ildir ki, iqtisadi ənənəyə çevrilmiş Çinin Urumçi şəhərinə təşkil olunan Azərbaycanın ixrac missiyaları də iki ölkənin biznes icması arasında təmasların genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İxrac missiyaları yeni bazarlara çıxış imkanlarını aşkar etmək, mövcud bazarlarda yerli məhsulların mövqeyini möhkəmlətmək və bu bazarlara yeni məhsullar təqdim etmək məqsədi ilə təşkil olunan dəstək tədbiridir. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycanın Çindəki Ticarət nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən bu tədbirlər ölkəmizin kənd təsərrüfatı məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsində əsas vasitələrdən biridir.

### Çin-Azərbaycan əlaqələrində yeni dövr

Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin sərgi çərçivəsində keçirdiyi görüşlər faydalı müzakirələrlə və mühüm anlaşmalarla yadda qalıb. Bildirilib ki, investisiya qanunvericiliyi təkmilləşdirilir və xarici investorlara münasibət müsbət istiqamətdə dəyişir. Bu amillər dünyanın bir çox şirkətləri kimi, Çin şirkətləri üçün də Azərbaycanın investisiya bazarını cəlbedici edir. Çin şirkətləri Azərbaycanın əlverişli coğrafi mövqeyi, sabit iqtisadi mühiti və geniş potensialı sayəsində ölkəmizə böyük maraq göstərir. Energetika, nəqliyyat, tikinti və informasiya texnologiyaları kimi sahələrdə Çin investisiyaları Azərbaycan iqtisadiyyatının diversifikasiyası və dayanıqlı inkişafına əhəmiyyətli töhfə verir.

Beləliklə, Çin Beynəlxalq İdxal Sərgisi Azərbaycanın investisiya və ticarət imkanlarını tanıtmaq, Çin bazarında mövqelərimizi gücləndirmək və yeni tərəfdaşlıqlar qurmaq üçün yeni fürsətlər yaradır. Azərbaycan məhsullarının daha geniş təqdimatına və ixrac imkanlarının genişləndirilməsinə səbəb olacaq.

*E.CƏFƏRLİ*

7 noyabr 2025-ci il, cümə № 203 (7030)

# 2026-cı ildə vergi siyasətinin əsas istiqamətləri

Məlum olduğu kimi, 2026-cı ilin dövlət büdcə layihəsinin Milli Məclisin komitələrində müzakirəsinə başlanılıb. Büdcənin ilkin göstəriciləri barədə məlumatlar ictimaiyyətə təqdim edilib. Eyni zamanda, büdcə layihəsində bir sıra fiskal alətlər, o cümlədən növbəti ildə vergi-gömrük siyasətinin əsas istiqamətləri barədə təkliflər öz əksini tapıb. Həmin təkliflər paketində ən mühüm və son günlər ictimaiyyətdə xüsusi maraq doğuran məqamlardan biri 2026-cı ildən etibarən muzdlu işlə bağlı gəlirlər və sosial sığorta ödənişləri üzrə mexanizmin tətbiqidir. Bu qərar əslində yenilik deyil, 2019-cu ildə özəl sektorda və qeyri-neft bölməsində qüvvəyə minmiş gəlir vergisi güzəştlərinin bərpasına keçiddir. Belə ki, 2019-cu il yanvarın 1-dən tətbiq edilən vergi və sosial qanunvericiliyin tələblərinə əsasən, özəl sektorda çalışanlar üçün 7 illik vergi güzəştlərinə start verilmişdi və həmin müddət gələn il yanvarın 1-də bitir.

## Kölgədən şəffaf və leqal əmək bazarına keçid

Yeri gəlmişkən, 2019-cu ildən tətbiq edilən gəlir vergisindən azadolma siyasəti ölkəmizin əmək bazarının leqallaşdırılmasında dönüş nöqtəsinə çevrilib. Bu qərar minlərlə işçinin əmək müqaviləsi ilə rəsmiləşdirilməsinə, qeyri-formal məşğulluğun əhəmiyyətli dərəcədə azalmasına şərait yaradıb. Belə ki, 2019 -2024-cü illər ərzində əmək müqavilələri üzrə işçilərin sayı 34 faiz artaraq 1 milyon 873 min nəfərə çatıb. Qeyri-neft sektorunun özəl bölməsində məşğulluq 82 faiz artıb, əməkhaqqı fondu 2,5 dəfə böyüyərək 24 milyard manata, sosial sığorta haqları üzrə daxilolmalar isə 5,7 milyard manata yüksəlib.

Bu dinamika həm iqtisadi fəallığın, həm də sosial ədalət mexanizmlərinin gücləndiyini sübut edir. Dövlətin atdığı addımlar nəticəsində işçilərin sosial müdafiəsi artıb, sahibkarlar üçün isə sabit və proqnozlaşdırıla bilən vergi mühiti formalaşıb.

## Səmərəli və optimal vergi mexanizmi

Hökumət 2019-cu ildən əvvəlki vergitutma mexanizminə qayıtmaq istəmədiyindən bu sahədə ədalətli və özəl bölməyə ağırlıq yaratmayan mütənasib və səmərəli vergi siyasətinə keçməyi qərara alıb. Belə ki, əvvəlki gəlir vergisi üzrə metodologiyaya əsasən, (2019-cu ildən əvvəl) 2500 manatadək olan əməkhaqqından 14 faiz, 2500 manatdan artıq gəlirdən isə 25 faiz vergi tutulduğu halda, hökumət bu sxemə təkrar geri qayıtmayaraq, tamamilə başqa vergi dərəcələr təklif etməklə özəl sektor üçün optimal vergitutma mexanizmi formalaşdırır. Mərhələli şəkildə artırılacaq yeni vergi sxeminin növbəti ildə dərəcəsi 3 faiz təşkil edəcək ki, bu da mövcud 14 faizlik dərəcədən 11 faiz azdır. Belə ki, 2026-cı ildən etibarən, işçilərin əksəriyyətini əhatə edən 2500 manatadək gəliri olan şəxslər üzrə gəlir vergisi 3 faiz olacaq. Nəticədə, qanunvericiliyə uyğun olaraq dövlət seltorunda qüvvədə olan 14 faizlik vergi yükünə nisbətən özəl sektorun gəlir vergisi 80 faiz azalma ilə davam edəcək. 2027-ci ildə isə bu rəqəm 5 faizə çatdırılacaq və yenə də 14 faizlik vergi yükünə rəğmən 65 faiz azalma ilə müşayiət olunacaq. Özəl sektorun gəlir vergisi 2028-ci ildən isə 7 faizə çatdırılacaq ki, bu da digər sektor təmsilçiləri ilə müqayisədə 50 faiz az vergitutma deməkdir.

Bu siyasətin mərhələli şəkildə həyata keçirilməsi sahibkarlara və işçilərə yeni vergi qaydalarına rahat uyğunlaşmağa kömək edəcək. Yəni biznesə birbaşa yük düşməsinin qarşısı alınacaq. Verginin mərhələli tətbiqi iqtisadiyyatda qiymətlərin və maaşların sabit qalmasına da dəstək verəcək. Nəticədə həm işçilər, həm də sahibkarlar üçün daha təhlükəsiz keçid təmin ediləcək. Yeni qaydalar üzrə özəl sektorun muzdlu işdən əldə olunan gəlirlərə münasibətdə ümumi vergi yükü 33-37 faiz olacaq ki, bu da region ölkələrindəki ümumi yük ilə eyni, bir çox ölkələrlə müqayisədə isə bir qədər aşağı səviyyədədir.



## Sosial və tibbi sığorta haqlarında azalma

Növbəti ildə vergi siyasəti ilə paralel olaraq, özəl sektorun ümumi ödənişlər yükünü azaltmaq üçün sosial sığorta sistemində dəyişikliklər nəzərdə tutulur. Belə ki, aylıq gəliri 8 min manatdan çox olan şəxslər üçün sosial sığorta dərəcəsinin 25 faizdən 21 faizə endirilməsi əmək motivasiyasını artıracaq, yüksək ixtisaslı mütəxəssislərin özəl sektorda fəaliyyətini təşviq edəcək. İcbari tibbi sığorta haqları isə 4 faizdən 1 faizə endiriləcək. Bu mexanizm həm işəgötürən, həm də işçi üçün daha ədalətli yük bölgüsü yaradacaq, işəgötürənlərin xərclərini azaltmaqla yeni iş yerlərinin açılmasına və maaş fondlarının genişlənməsinə təkan verəcək. Yeni mexanizm həm sosial sabitliyi, həm də iqtisadi dinamizmi eyni anda gücləndirən balanslı model kimi çıxış edir.

Beləliklə, yeni gəlir və sosial sığorta mexanizmi Azərbaycanın iqtisadi idarəetməsində yeni bir mərhələyə keçidin əsasını 2019-cu ildən bəri həyata keçirilən islahatlar iqtisadiyyatı stimullaşdırmaq və adaptasiya dövrünü keçmək məqsədi daşıyırdı və hökumət faktiki olaraq bu məqsədlərə nail olub. Yeni dövrdə isə əsas hədəf sabitlik, davamlı sosial təminat və bərabər əmək münasibətlərinin qurulmasıdır. Bu baxımdan işçi və işəgötürən üçün daha aydın qaydalar, gəlirlərin şəffaf uçotu, sosial fondların dayanıqlığı və yerli istehsalın təşviqi bu modelin əsas istiqamətləridir.

## Sahibkarlığın dəstəklənməsi, investisiyaların təşviqi

Onu da xatırladaq ki, dövlət Vergi Məcəlləsində bir sıra optimallaşma və güzəşt tədbirlərini də nəzərdə tutur ki, bu dəyişikliklərin də əsas mahiyyəti kiçik və orta sahibkarlığa dəstək məqsədi daşıyır. Belə ki, illik dövriyyəsi 200 min manat olan vergi ödəyicilərinin ƏDV qeydiyyatına düşməsinin və vergi yükünün artmasının qarşısını almaq üçün hövbəti ildən həmin sahibkarların illik dövriyyəsi 400 min manata çatdırılacaq. Nəticədə onlar ƏDV qeydiyyatına düşmək öhdəliyi ilə üzləşməyəcəklər və aşağı vergi rejimində sahibkarlığın inkişafı təşviq olunacaq.

Habelə ictimai iaşə müəssisələrində çalışan biznes təmsilçiləri 3 il müddətinə POS-terminal vasitəsilə qəbul etdikləri ödənişlər üzrə formalaşan dövriyyənin 50 faizini ƏDV-dən çıxacaq ki, bu da nəticədə onların 6 faizlə vergiyə cəlb edilməsinə səbəb olacaq. Eləcə də kənd təsərrüfatında istehsalçıları dəstəkləmək və əhalinin ekoloji təmiz məhsullarla təminatını artırmaq məqsədilə yeni vergi təşəbbüsü qüvvəyə minəcək, balıqçılıq sahəsi üçün yeni vergi güzəştləri nəzərdə tutulur. Eyni zamanda, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar atılması da planlaşdırılır.

*E.CƏFƏRLİ*

# "ACWA Power" Xəzər dənizinin suyunu duzsuzlaşdıracaq

**Zavodun 2028-ci ildə istismara veriləcəyi gözlənilir**

Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması zavodunun tam istismara verilməsi 2028-ci ilin yekununa planlaşdırılır. Bu barədə zavodun tikintisi layihəsində Azərbaycanın əsas tərəfdaşı olan Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin baş direktoru Marko Arçelli bildirib. O, qeyd edib ki, şirkətin indiyə qədər yatırdığı investisiyanın məbləği 1,5 milyard Səudiyyə rialı təşkil edib ki, bu da 679,95 milyon manat və ya 407 milyon dollar deməkdir. Layihə üzrə sərmayə planlarını davam etdirəcək "ACWA Power" qarşıdakı 3 ildə əlavə kapital yatırılmaları da edəcək ki, zavodun investisiya dəyəri 1 milyard dolları ötmüş olacaq.

Qeyd edək ki, layihə Sumqayıt Kimya Sənaye Parkının ərazisində gündəlik gücü 300 min kubmetr olan dəniz suyunun duzsuzlaşdırılması zavodunun tikintisini nəzərdə tutur. "ACWA Power" zavodun inşasında Türkiyənin "IC İçtaş İnşaat" şirkəti ilə yaxından partnyorluq edir.

Sazişin şərtlərinə görə, layihənin icra müddəti 27,5 il təşkil edəcək, bu müddət bitdikdən sonra obyektin idarəçiliyi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə veriləcək.

## Sumqayıt Sənaye Parkında nəhəng istehsal sahəsi

Dəniz suyunun duzsuzlaşdırılması layihəsi İqtisadiyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığı çərçivəsində ölkəmizdə icrası nəzərdə tutulan ilk pilot layihədir. Layihə çərçivəsində Sumqayıt Sənaye Parkında tikiləcək zavodda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı həyata keçiriləcək. Gündəlik 300 min kubmetr məhsuldarlığa malik layihə Abşeron yarımadasının içməli suya artan tələbatını təmin etmək, şirin su mənbələrini şaxələndirmək məqsədi daşıyır. Əsas hədəf dövlətin içməli su təchizatında yükünü azaltmaq, bu sahədə beynəlxalq təcrübəni və texnologiya transferini stimullaşdırmaq, iqtisadiyyata xarici sərmayələri cəlb etməkdir.

Su ehtiyatlarından istifadənin yaxşılaşdırılması, içməli su təchizatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb olunması sosial-iqtisadi inkişafda önəm kəsb edir. Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı layihələri dünyanın bir sıra ölkələrində icra edilir. Qlobal istiləşmə, su ehtiyatlarının səmərəsiz istifadəsi və dünyada artan quraqlıq içməli suyun istehsalı üçün duzsuzlaşdırma zavodlarının fəal istifadəsinə təkan verib.




## "Əks Osmos" texnologiyası

Dünya ölkələrində dəniz suyunun duzsuzlaşdırılması layihələrində "Əks Osmos" (Reverse Osmosis) texnologiyası tətbiq edilir. Bir sıra ölkələrdə bu layihələr dövlət-özəl tərəfdaşlığı modeli ilə həyata keçirilir. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İsrail kimi Yaxın Şərq ölkələrində bu layihələr geniş yayılmışdır. Həmçinin ABŞ, Avstraliya və bir sıra başqa ölkələrdə də duzsuzlaşdırma zavodları fəaliyyət göstərir. Bu baxımdan Azərbaycanda da su ehtiyatlarından istifadənin yaxşılaşdırılması, su təhlükəsizliyinin təmini, əhalinin içməli su təchizatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlbi aktuallaşıb. Çünki Azərbaycan su ehtiyatlarının həcminə görə, region ölkələri arasında ən az resurslara malik olduğundan qarşıdakı illərdə dayanıqlı su fondunun yaradılması ciddi məsələ kimi qarşıda durur. 2024-cü il statistikasına görə, Azərbaycanda yerüstü su ehtiyatları 17 milyard kubmetr təşkil edib. Bu, respublikamızın ən çox sululuq dövrü hesab olunan 1960-1990-cı illərdəki göstəriciyə nisbətən, 45 faiz azdır. Belə ki, həmin dövrdə ehtiyatlar 30 milyard kubmetr olub. Bu vəziyyət su ehtiyatlarının hesablanması və yeni mənbələrin dövriyyəyə cəlb edilməsini labüd edir. Alternativ su mənbələrindən biri isə dəniz suyunun duzlaşdırılmasıdır. Məhz bu çağırışlar nəzərə alınmaqla, dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi nəzərdə tutulur.

## "Yaşıl enerji"nin sadiq tərəfdaşı

Səudiyyə Ərəbistanının iri investoru olan "ACWA Power" dünyada ətraf mühitin sağlamlaşdırılması və "yaşıl mənbə"lərin istismarında ən nüfuzlu korporosiyalardan biridir. Şirkət enerji və su sahəsində qlobal lider olmaqla yanaşı, dünyanın eyni zamanda bərpaolunan enerji, yaşıl hidrogen və duzsuzlaşdırılmış su üzrə ixtisaslaşan və bu üç gələcək üçün kritik sahədə liderdir. Dünyanın ən böyük özəl su duzsuzlaşdırma şirkəti olaraq, hər gün 9,5 milyon kubmetrdən artıq təmiz su ilə təminatı həyata keçirir.

Şirkət həm də dünyanın yaşıl gündəliyini müəyyən edən, zənginləşdirən qlobal təchizatçıdır. 2 ildən artıqdır ki, Azərbaycanda "yaşıl enerji" sektorunda da fəal sərmayədar kimi çıxış edən şirkətin təkcə 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) tikintisinə yatırdığı investisiyanın məbləği 486,39 milyon manata bərabərdir. 2025-ci ilin yekununda tamamlanması gözlənilən "Xızı-Abşeron" KES-in istifadəyə verilməsi sayəsində ildə təxminən 907 milyon kilovat/saat təmiz elektrik enerjisi istehsal ediləcək ki, bu da 300 mindən çox abonentin enerji tələbatını qarşılayacaq.

"ACWA Power"nın Azərbaycanda icra etdiyi digər külək layihələri də enerji tutumuna görə, əhəmiyyətlidir. Həmin layihələrin əksəriyyəti tam kommersiyalaşdırılıb ki, bu da onun əsaslı istismarına başlamaq üçün hüquqi-iqtisadi zəmanət deməkdir. Bu layihələrin sərmayə portfeli birlikdə 2 milyard dollara yaxındır və ümumilikdə 3,7 GVt güc və 3000 ton ekoloji baxımdan təmiz hidrogen istehsalını nəzərdə tutur. Şirkət indiyə qədər ümumi məbləği 1,166 milyard manata çatan sərmayəni reallaşdırıb.

*E.CƏFƏRLİ*

## Dövlət və İT üzrə Avrasiya Forumu keçirilib

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) və "StrategEast" təşkilatının tərəfdaşlığı ilə Bakıda 7-ci "StrategEast: Dövlət və İT üzrə Avrasiya Forumu" keçirilib. Azərbaycanda birinci dəfə təşkil edilən bu forum ABŞ, Avropa Birliyi, Körfəz, Mərkəzi Asiya və Qafqaz regionlarından 200-ə yaxın eksperti və texnologiya liderini bir araya gətirib.

Budəfəki tədbir "Süni zəka ilə dəyişən dünya" mövzusuna həsr olunub. Forum zamanı süni intellektin qlobal iqtisadiyyata, xüsusilə də Mərkəzi Avrasiya regionu ölkələrinin iqtisadiyyatına təsiri, yaratdığı imkanlar

### Bakıda ilk dəfə...

və çağırışlar, həmçinin süni intellektdən etik və məsuliyyətli istifadə normalarına dair ekspert çıxışları və panel müzakirələri baş tutub.

Tədbir əsnasında "Google", EPAM, "Xsolla", "Coursera" və "Sigma Sotfware" kimi dünyanın qabaqcıl texnologiya şirkətlərindən nümayəndələr, o cümlədən Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankının ekspertləri iştirak ediblər. Bundan əlavə, tədbirdə startaplarla vençur və korporativ investorlar arasında görüşlərin nəzərdə tutulduğu xüsusi "Startups Meet Investors" sessiyası da təşkil edilib.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

## Azərbaycanda süni intellekt əsaslı çatbotlar hazırlanır

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin kommersiya üzrə baş direktoru Salar İmaməliyev bildirib ki, Azərbaycanda 2025-2028-ci illər üçün Süni İntellekt üzrə Milli Strategiya təsdiqlənib və bu, dayanıqlı süni intellekt ekosisteminin qurulmasına yönəlmiş genişmiqyaslı yol xəritəsidir.

O, bildirib ki, strategiyanın əsas istiqamətləri infrastrukturun yaradılması, insan kapitalının inkişafı və süni intellektin həm iqtisadiyyata, həm də cəmiyyətə fayda verməsini təmin etməkdir: "Bu, asan məsələ deyil, xüsusilə də texnoloji inkişaf baxımından qarşıda bir çox çətinliklər var. Biz artıq beynəlxalq bazar təhlili aparmışıq, ölçmə və qiymətləndirmə metodologiyalarını qlobal standartlarla uyğunlaşdırmışıq və rəqəmsal kodlaşdırmanı dövlət qurumları arasında koordinasiya etmişik. Bu standartlardan dördü artıq qəbul olunub və hazırda vətəndaşlara xidmət göstərir. Bu prosesi sürətləndirmək üçün biz Süni İntellekt Akademiyasını təsis etdik. Bu, milli strategiyamızda əsas mərhələdir. Onun missiyası dünya səviyyəli Aİ təcrübələrini formalaşdırmaq, tədris və tədqiqat istiqamətlərini inkişaf etdirməkdir. Kurikulum MIT, Stanford, Harvard, Carnegie Mellon kimi aparıcı universitetlərin proqramları ilə uzlaşdırılıb. Lakin bizim missiyamız bununla bitmir. Təhsil müəssisələrinin hüdudlarını aşaraq gündəlik həyata da daxil olur. Bizim sistemlərimiz 98 faizlik dəqiqliklə istifadəçilərə hüquqi cəhətdən etibarlı və dəqiq nəticələr təqdim edir, spekulyativ nəticələr deyil".




## EBRD Azərbaycanda İKT sahəsində 200-dən çox layihəni dəstəkləyir

EBRD-nin Qafqaz regionu üzrə direktoru Alkis Drankinos bildirib ki, Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) rolu təkcə maliyyə və ya texniki yardım göstərməkdən ibarət deyil.

O, bankın innovasiyaları təşviq edən "Star Venture" adlı proqramının olduğunu qeyd edib: "2019-cu ildən tətbiq olunan bu proqram yeni və sürətlə inkişaf edən startapları dəstəkləmək məqsədi daşıyır. Əvvəlcə 3 ölkədə pilot olaraq başlayan proqram indi 26 bazarda fəaliyyət göstərir, 350-dən çox şirkət və 36 akseleratoru dəstəkləyir. Azərbaycanda isə 2022-ci ildən etibarən 10-dan çox yerli startap bu proqramdan yararlanıb. Bu startaplar müxtəlif sahələrdə, yeni məlumat texnologiyaları, xidmətlər və innovativ həllər üzrə fəaliyyət göstərir. Bundan əlavə, Azərbaycanda İKT sahəsində 200-dən çox layihəni dəstəkləyirik və bu, ölkənin innovativ iqtisadiyyatının möhkəmlənməsinə töhfə verir".

Alkis Drankinosun fikrincə, digər önəmli təşəbbüslərdən biri də StrategEast IT Hub proqramıdır: "Bu proqram 2022-ci ildə Bakıda yaradılıb və Avropa Yenidənqurma və İnkişaf Bankının, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və StrategEast təşkilatının birgə təşəbbüsüdür. Proqram çərçivəsində Gəncə, Lənkəran, Şirvan və Naxçıvan kimi bölgələrdən 85 gənc müasir İT bacarıqları üzrə təlim keçib və bir çoxu artıq proqram təminatı üzrə beynəlxalq sertifikatlar alıb".

*Yeganə*

# Aİ-nin "Metsamor planı": enerji təhlükəsizliyi, yoxsa yeni geosiyasi məqsədlər?

## Brüsselin köhnə və təhlükəli atom stansiyasına dəstəyinin əsl sirri

Ermənistan Avropa İttifaqından (Aİ) 5 milyon avro məbləğində maliyyə dəstəyi alacaq. Ermənistan mediasının məlumatında vəsaitin ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsi və Metsamor Atom Elektrik Stansiyasında qəza risklərinin azaldılması məqsədilə ayrıldığı bildirilir. Məlumata görə, Aİ-nin dəstəyi çərçivəsində stansiyada təhlükəsizlik sistemlərinin yenilənməsi, müasir texnologiyaların tətbiqi və beynəlxalq standartlara uyğunlaşdırması işləri həyata keçiriləcək. Ekspertlər bildirirlər ki, köhnəlmiş texnologiyalar və təhlükəsizlik qaydalarının pozulması səbəbindən Metsamor AES region üçün potensial təhlükə yaradır.

### Milyonları "yeyən" Metsamor...

Qeyd edək ki, Metsamor Ermənistanda yeganə atom elektrik stansiyasıdır və 1970-ci illərdə tikilib. Stansiyanın fəaliyyəti 1988-ci ildə Ermənistanda baş vermiş güclü zəlzələdən sonra dayandırılıb. 1995-ci ildə isə ağır iqtisadi vəziyyətlə əlaqədar olaraq stansiyada olan nüvə reaktorlardan birinin - ikinci bölmənin fəaliyyəti bərpa edilib. Ermənistanın elektrik enerjisi istehsalında bu stansiya ən böyük paya - təxminən 40 faizə sahibdir. Stansiyanın idarə edilməsi və fəaliyyəti üzərində nəzarət isə Rusiyanın "Rosatom" dövlət şirkəti tərəfindən təmin edilir. Stansiyada işləyən ikinci bölmənin istismar müddəti 2016-cı ildə bitdiyindən Ermənistan yeni stansiya qurmaq niyyətində idi. Lakin yeni stansiyanın tikilməsinin çox baha başa gəlməsi, buna təxminən 5 milyard ABŞ dolları tələb olunduğu üçün Ermənistan yalnız fəaliyyət göstərən köhnə bölmənin yenilənməsinə "qol qoydu". Bunun üçün isə Beynəlxalq Atom Enerjisi Agentliyindən icazə alındı və yenidənqurma işlərinə başlanıldı.

Maliyyə qaynağına gəldikdə isə, 2014-cü ilin sonunda Rusiya ikinci bölmənin yenidən qurulması və xidmət müddətinin 2026-cı ilə qədər uzadılmasının təmin edilməsi üçün 270 milyon ABŞ dolları həcmində kredit və 30 milyon dollar qrant ayırmağa hazır olduğunu bəyan etdi. 2015-ci ilin fevral ayında isə kreditin və qrantın əldə edilməsi üçün müqavilə imzalandı. Kredit Ermənistana güzəştli şərtlərlə - illik 3 faiz, maksimum 15 il üçün verildi. Yenidənqurma işlərinin 2019-cu ildə bitməsi planlaşdırılsa da, işlər gözlənildiyi kimi inkişaf etmədi. 2020-ci il II Qarabağ müharibəsinin başlaması ilə ayrılmış ümumi vəsaitin 107 milyon dolları istifadəsiz qaldı. Ondan öncə isə qlobal pandemiya ilə bağlı işlər uzanmışdı. Ermənistanın baş naziri Nikol Paşinyanın 2022-ci ilin aprelində Moskvaya səfəri zamanı Rusiya ilə Ermənistan arasında imzalanan dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilədə Metsamorla bağlı müddəalar yer alırdı - hətta sənəddə Rusiyanın yardımı ilə yeni AES-in tikintisi nəzərdə tutulurdu.

2023-cü ildə isə vəziyyət dəyişdi - baş nazir Nikol Paşinyan Ermənistanın Metsamordakı AES-in yenidən qurulmasında "Rosatom"un xidmətlərindən imtina etdi. Həmin dövrdə Ermənistan mətbuatı bununla bağlı ABŞ-ın Nüvə Tənzimləmə Komissiyası ilə sazişin təsdiqləndiyini və bu komissiyanın Ermənistanda yeni AES-in lisenziyalaşdırılmasına, kadr hazırlığına, təhlükəsizliyin qiymətləndirilməsinə və stansiya layihəsinin digər əsas elementlərinə nəzarət edəcəyini yazmışdı. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ABŞ-a 2023-cü ildə reallaşan səfəri zamanı isə mülki nüvə enerjisi sahəsində strateji əməkdaşlığa dair anlaşma memorandumu imzalanmışdı.

### Maliyyə transı, yoxsa siyasi manevr...

İndiki halda isə artıq vəziyyət bir az da dəyişir - maliyyə qaynağı müstəvisində bu dəfə Aİ-nin çıxış etməsi bir çox suallara yol açır. Bəzi siyasi ekspertlər bu maliyyə vəsaitinin sadəcə ilkin baxışda humanitar və ya təhlükəsizlik yönümlü addım kimi göründüyü qənaətindədir. Məsələnin geosiyasi tərəfləri, xüsusilə də Avropa-Rusiya qarşıdurmasının genişləndiyi, regionda yeni enerji xəritəsinin formalaşdığı bir dövrdə bu qərarın pərdəarxası motivlərini diqqətlə təhlil etməyin zəruriliyi önə çəkilir.

### Əsl plan: Rusiyanın Cənubi Qafqazla əlaqəsi tam kəsilsin

Qeyd edildiyi kimi, bu addım Brüsselin Cənubi Qafqazda Rusiyanın təsir mexanizmlərini tamamilə zəiflətmək niyyətinin yeni mərhələsi sayılır. Sirr deyil ki, Moskva uzun illər Ermənistan vasitəsilə regionda həm iqtisadi, həm də siyasi alətə malik olub - Metsamor da bu vasitələrdən biri olub. Ermənistanın enerji balansının böyük hissəsi bu stansiyanın hesabına formalaşır və onun idarəetmə sisteminin mühüm seqmentləri Rusiya mütəxəssislərinin nəzarətində olub. Brüsselin indi "qəza risklərini azaltmaq" tezisi ilə bu sahəyə daxil olması faktiki olaraq həmin nəzarəti tədricən Moskvanın əlindən almaq planıdır. Aİ yaxşı anlayır ki, enerji asılılığını dəyişmədən Ermənistanı Avropanın təsir dairəsinə tam daxil etmək mümkün deyil. Buna görə də Metsamor üzərində texnoloji, maliyyə və normativ təsir əldə etməklə Rusiyanın Ermənistandakı varlığı çəmbərini bir az da daraltmaq istəyir.

Bu isə həm də Ukrayna müharibəsindən sonra formalaşan yeni Avropa strategiyasına tam uyğun gəlir. Siyasi mütəxəssislərin rəyinə görə, Avropa İttifaqı artıq hərbi qarşıdurmadan daha çox, iqtisadi və enerji mexanizmləri üzərindən təsir qurmağa üstünlük verir - qəbul edilən 20-yə yaxın sanksiya paketi buna misaldır. Ermənistan həm də bu baxımdan Aİ üçün əlverişli poliqondur - həm Rusiyadan asılı, həm də Qərbə inteqrasiya arzusunda olan bir ölkədir.

Bir sözlə, düşünülür ki, Metsamorun "modernləşdirilməsi" adı altında atılan addımlar əslində geosiyasi manevrdir. Çünki Avropa enerji mütəxəssislərinin, təhlükəsizlik nəzarətçilərinin və texniki müşavirlərinin Ermənistana daxil olması Rusiya üçün strateji zərbə deməkdir. Brüssel bununla həm Kremlə siyasi mesaj verir, həm də Cənubi Qafqazda yeni enerji xəritəsini formalaşdırmaq "arzusunu" ortaya qoyur. Beləliklə, Brüsselin hədəfi açıqdır: Rusiyanın Ermənistandakı strateji enerji obyektləri üzərindəki nəzarətini zəiflətmək, uzunmüddətli perspektivdə isə onu tam aradan qaldırmaq. Metsamor layihəsi bu planın başlanğıcıdır.

### "Üçlü ox": Ermənistanın ənənəvi "çətir" oyunu...

Ermənistanın bu maliyyə transına razılıq verməsi isə onun növbəti dəfə "geosiyasi alət" rolunu qəbul etməsi anlamına gəlir. Rəsmi İrəvan Aİ-yə inteqrasiya istiqamətində hərəkət etdiyini göstərməyə çalışır, lakin bu, regionda yeni qarşıdurmaların təməlini qoya bilər. Metsamor məsələsi əslində Ermənistanın ziddiyyətli siyasətinin göstəricisidir. Belə siyasət nəinki ölkənin sabitliyinə, həm də bütün regionun təhlükəsizliyinə risk yaradır. Ermənistan bir tərəfdən Rusiyanın orbitindən tam çıxmaq istəmir, digər tərəfdən Avropa Birliyinə yaxınlaşmaqla Qərbin himayəsini qazanmağa çalışır. Amma bu oyun uzunmüddətli perspektivdə onun üçün təhlükəlidir - çünki geosiyasi ziddiyyətlərin mərkəzinə çevrilmək riski artır.

### Metsamor: ekoloji və siyasi təhlükə mənbəyi

Azərbaycan dəfələrlə Metsamor AES-in bağlanması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciətlər ünvanlayıb. Bu stansiya texnoloji cəhətdən köhnəlib, seysmik zonada yerləşir və regionun ekoloji təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Ən təhlükəli məqamlardan biri də stansiyada yaranan radioaktiv tullantıların sərhədə yaxın ərazilərdə basdırılması və bu artıqların Azərbaycanın su hövzələrinə yönləndirilməsidir. Bu, yalnız ekoloji deyil, həm də humanitar fəlakət riskidir. Belə bir şəraitdə Aİ-nin "qəza risklərinin azaldılması" adı altında Metsamorun fəaliyyətinə milyonlarla avro ayırması məntiqsiz görünür. Bir tərəfdən Avropa "yaşıl enerji"yə, bərpaolunan mənbələrə keçidlə bağlı çağırışlar edir, amma paralel şəkildə köhnəlmiş atom stansiyasını maliyyələşdirir. Bu, Brüsselin real niyyətlərinin təhlükəsizlikdən daha çox, siyasətlə bağlı olduğunu təsdiqləyir.

### Avropa İttifaqının addımı regionun təhlükəsizliyinə təhdiddir

Azərbaycan bu gün qlobal "yaşıl enerji" prosesində öncül mövqe tutur. COP29-a ev sahibliyi edən ölkə kimi Bakı dünyanın iqlim gündəliyində aparıcı tərəfdaş statusu qazanıb. Quru, külək və günəş enerjisi layihələri, həmçinin azad edilmiş ərazilərdə "yaşıl zona" konsepsiyası Azərbaycanın strateji hədəflərinin reallığını göstərir. Bu, Aİ tərəfindən də dəstəklənir - dəfələrlə bununla bağlı qurum rəsmiləri öz açıqlamalarında bildiriblər. Bu baxımdan Aİ-nin Metsamor kimi riskli və ekoloji cəhətdən zərərli bir obyektə dəstək verməsi açıq şəkildə öz prinsiplərinə zidd getməsidir. Azərbaycan haqlı olaraq hesab edir ki, regionda enerji sabitliyi yalnız bərpa olunan enerji və ekoloji balans əsasında qurulmalıdır. Metsamor kimi riskli obyektlərin saxlanılması isə bölgənin sabitliyini pozur.



Beləliklə, Avropa İttifaqının addımı regionun təhlükəsizliyinə təhdiddir - yeni gərginliklər yarada bilər. Ermənistan anlamalıdır ki, belə oyunlar nə onun, nə də regionun xeyrinədir. Əsl enerji təhlükəsizliyi yalnız ekoloji təmiz texnologiyalar, şəffaf əməkdaşlıq və qonşularla qarşılıqlı etimad üzərində qurula bilər. Azərbaycan isə bu istiqamətdə nümunəvi mövqedədir - Avropa bu nümunədən nəticə çıxarmalı, köhnə riskləri maliyyələşdirmək əvəzinə, regionda dayanıqlı inkişaf təşəbbüslərinə dəstək verməlidir.

***P.İSMAYILOV***

# Gürcüstan-Avropa: gərginlik artır...

## Tbilisi Aİ-nin genişlənmə siyasətindən kənarda

Son vaxtlarda Avropa İttifaqı (Aİ) ilə Gürcüstan arasında kəskin ziddiyyətlər yaşandığı müşahidə edilir. Zamanında Aİ keçmiş sovet rejimindən çıxan bu ölkəni bir növ seçilmiş dövlət kimi fərqləndirirdi. Gürcüstanın Brüsseldən davamlı olaraq siyasi və maddi dəstək alması bunun əyani təsdiqi idi. Hətta ölkə vətəndaşları üçün Aİ məkanına vizasız gediş-gəlişə də icazə verilmişdi.

Hazıda isə bütün bunlar sanki bir nağıla çevrilib və keçmişdə qalıb. Tərəflər arasında münasibətlərdə çatlar getdikcə dərinləşir. Müxtəlif məsələlərlə bağlı rəsmi Tbilisi Avropa İttifaqını, öz növbəsində Brüssel isə Gürcüstan hakimiyyətini ittihamlar yağışına tutur.

### Gürcüstan Aİ-nin əsas prioritetinə daxil edilməyib

Uzun müddət ərzində Avropa İttifaqı-Gürcüstan dialoqunda bu ölkənin Aİ-yə üzvlüyə qəbul edilməsi məsələsi gündəliyin mərkəzində dayanıb. Aİ öz qapılarını bu ölkənin üzünə açmağa hazır olan kimi görünürdü və rəsmi Tbilisi də bundan çox məmnun idi. Hər iki tərəfdən Avropa İttifaqına üzvlüyü şərtləndirən müəyyən prosedurlara da start verilmişdi və hansısa bir yol keçilmişdi.

Ancaq indi Gürcüstanın ən azından yaxın perspektiv üçün Aİ-nin genişlənmə siyasətindən kənarda saxlanıldığının şahidi oluruq. Bu günlərdə Avropa Komissiyası Avropa İttifaqına üzv olmaq istəyən ölkələrdə bu istiqamətdə vəziyyətin qiymətləndirildiyi Genişlənmə üzrə illik hesabatı (Enlargement Package 2025) dərc edib. Sənəddə genişlənmənin Avropa İttifaqının əsas prioriteti olaraq qaldığı və yeni üzvlərin daxil olmasının getdikcə daha real perspektivə çevrildiyi qeyd edilib.

Hesabatda Monteneqro və Albaniyanın əhəmiyyətli irəliləyişə nail olduğu qeyd edilir, hər iki ölkə islahatların tempini qoruyub saxlayır və üzvlük danışıqlarını 2026-2027-ci illərə qədər tamamlaya bilər.

Ukrayna və Moldova mürəkkəb xarici şəraitə baxmayaraq, qanunvericiliyin təhlili prosesini uğurla başa çatdırıb və danışıq klasterlərinin əksəriyyətinin açılması üçün şərtləri yerinə yetirib. Avropa Komissiyası qanunun aliliyi və demokratiya sahəsində islahatların davam etdirilməsi şərtilə, Moldovanın 2028-ci ilin əvvəlində, Ukraynanın isə həmin ilin sonunda üzvlük danışıqlarına başlaya biləcəyini gözləyir.

Eyni zamanda, Serbiya və Bosniya və Herseqovina irəliləyişləri ləngidən siyasi çətinliklərlə üzləşib.

Gürcüstan isə belə səmimi münasibətdən kənarda qalıb. Avropa Komissiyasının qiymətləndirmələrinə görə, Gürcüstan "demokratik gerilələmə" nümayiş etdirir, bu da əslində onun inteqrasiya prosesini dayandırıb.

Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen vurğulayıb ki, genişlənmə "sülh, rifah və həmrəylik vədidir" və bu yolda uğur namizəd ölkələrin konkret islahatlarından və siyasi iradəsindən asılıdır. Aİ-nin üzv dövlətləri genişlənmə prosesində növbəti addımları müəyyənləşdirmək üçün komissiyanın tövsiyələrini nəzərdən keçirməlidir.



### Sanksiyalara çağırış

Ötən il Gürcüstanda baş tutan parlament və prezident seçkiləri ciddi ajiotajla müşayiət olundu. Hər iki seçkilər ərəfəsində birləşmiş müxalifət və ayrı-ayrı vətəndaş cəmiyyəti təsisatları seçkilərdə indiki hakim komandanın - "Gürcü Arzusu - Demokratik Gürcüstan" partriyasının qələbəsini etirazla qarşılayaraq günlərlə Rustaveli prospektində, parlament binasının önündə fasiləsiz aksiyalar keçirdilər. Gürcüstan hakimiyyətinin bildirdiyinə görə, bu aksiyaların sifarişi birbaşa Qərb dairələrindən gəlirdi.

Qonşu Gürcüstanda cari il oktyabrın 4-də isə yerli özünüidarəetmə orqanlarına seçkilər keçirilib. Seçkilərə 12 siyasi partiya qatılıb. Ötən il baş tutan parlament və prezident seçkilərində olduğu kimi, bu dəfə də hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyası qalib gəlib. Partiyanın rəhbərliyi seçkilərin nəticəsini xalqın hakim partiyaya olan etimadının göstəricisi kimi qiymətləndirib.

Lakin bu dəfə də seçkilər insidentsiz ötüşməyib. Belə ki, parlament və prezident seçkiləri ərəfəsində olduğu kimi, bələdiyyə seçkilərindən sonra da müxalifət təmsilçiləri Tbilisidə küçələrə çıxaraq elan olunan nəticələrə etirazlarını bildiriblər.

Etiraz aksiyalarının iştirakçıları hakimiyyəti ələ keçirmək məqsədilə meydanlara toplaşıblar. Bu dəfə də Tbilisi küçələrində müxalifətin "Maydan" uğursuzluğu təkrarlanıb. Gürcüstanın Daxili İşlər Nazirliyi 4 oktyabrda Tbilisidə keçirilən etiraz aksiyasının əsas təşkilatçılarının saxlanıldığını açıqlayıb. Daxili işlər nazirinin müavini Aleksandr Daraxtvelidze bildirib ki, saxlanılan şəxslər Gürcüstanın Konstitusiya quruluşunu zorla dəyişdirməyə və ya dövlət hakimiyyətini devirməyə çağırışlar etmək, qrup şəklində zorakılığın təşkili, rəhbərliyi və ona qoşulmaqda ittiham olunurlar. Onun sözlərinə görə, bu cinayətlərə görə 9 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

İstintaq materiallarına əsasən, saxlanılan şəxslər Azadlıq meydanında keçirilən mitinqdə zorakılıq çağırışları ediblər, bəzi iştirakçılar isə Prezident Sarayının mühafizə baryerlərini dağıdaraq binaya daxil olmağa cəhd göstəriblər.

Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, bu dəfə də Gürcüstanın hakimiyyətə qarşı birləşən müxalifəti ilə Qərb dairələri sinxron qaydada fəaliyyət göstəriblər. Yəni Tbilisi küçələrində Prezident Sarayını ələ keçirmək, hakimiyyəti devirmək məqsədilə keçirilən aksiyaların iştirakçıları Avropa İttifaqının rəsmiləri, ayrı-ayrı Qərb dövlətlərinin səfirləri tərəfindən dəstəkləniblər. Bələdiyyə seçkiləri açıq-aşkar hədəfə alınıb. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas və Avropa Komissiyasının genişlənmə üzrə komissarı Marta Kos oktyabrın 4-də Gürcüstanda keçirilmiş bələdiyyə seçkiləri ilə bağlı birgə bəyanat yayıblar. Sənəddə Gürcüstanda seçkilərin müxalifətin sıxışdırılması fonunda keçirildiyi bildirilib. Qeyd edilib ki, müxalifətin əhəmiyyətli hissəsinin boykotu səbəbindən seçkilər rəqabətli mühitdə keçirilməyib və seçici fəallığı nisbətən aşağı olub. "Biz seçkilərdən sonrakı dövrdə sakitliyə, təmkinliyə çağırırıq və hakimiyyəti vətəndaşların sərbəst toplaşmaq və ifadə azadlığı hüquqlarına hörmət etməyə çağırırıq. Bütün siyasi qüvvələrin və vətəndaş cəmiyyətinin iştirakı ilə konstruktiv və əhatəli dialoq vacibdir və biz bütün tərəfləri zorakılıqdan çəkinməyə çağırırıq", - deyə bəyanatda bildirilib.

Son günlərdə isə Avropa İttifaqı Gürcüstanda seçkilər ərəfəsində birləşmiş müxalifətə siyasi bəyanatlarla tərəfdar çıxmasını rəsmi Tbilisiyə qarşı sanksiyalara çağırışla dəstəkləyib. "Gürcüstanda dinc nümayişçilərlə zorakı davrananlara qarşı sanksiya tətbiq etməyə çalışırıq". Bunu Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas bildirib.

Jurnalistlərin "konkret addımlar gözlənilirmi?" sualını cavablandıran K. Kallas qeyd edib ki, məsələ hazırda bütün Aİ üzvlərinin dəstəyini qazanmayıb: "Biz Gürcüstanda dinc nümayişçilərə qarşı güc tətbiq edən yüksək rütbəli dövlət məmurlarına sanksiyalar həyata keçirməyə çalışırıq. Hazırda bütün üzv dövlətlərin dəstəyinə malik deyilik. Lakin bu problemlərin həlli üçün müxtəlif yollar axtarmağa davam edirik2.

Aİ-nin genişlənmə üzrə komissarı Marta Kos isə bildirib ki, konkret qərar üzv dövlətlərdən asılıdır. "Ümid edirəm ki, noyabrda vizasız rejimin dayandırılması üçün yeni mexanizm əldə edəcəyik. Bu, əlavə addımlar atmağa imkan verəcək", - deyə Aİ-nin genişlənmə üzrə komissarı bildirib.

Avropanı təmsil edən digər bir struktur - "Avronest" də rəsmi Tbilisiyə dil uzatmaqdan çəkinməyib. Belə ki, qurum Gürcüstanda baş verən proseslərə dair qətnamə qəbul edib və sənəddə ölkədə demokratiyanın geriləməsi qeyd olunub.

### Rəsmi Tbilisinin Aİ-yə gecikməyən kəskin etirazı

Öz növbəsində rəsmi Tbilisinin Aİ-yə kəskin etirazı özünü çox gözlətməyib. Gürcüstan Xarici İşlər Nazirliyi Avropa İttifaqına üzvlük məsələsinin siyasi alət kimi istifadə edilməsini pisləyib. Nazirliyin açıqlamasında qeyd edilir ki, hesabatda Gürcüstanla bağlı bir sıra hadisələrə qərəzli qiymət verilməsi narahatlıq doğurur və Aİ-nin bəzi addımları ölkənin daxili siyasətinə təsir etmək məqsədi daşıyır.

Bəyanatda vurğulanır ki, 2025-ci il noyabrın 4-də yayımlanan Genişlənmə Hesabatı əsassız mənfi qiymətləndirmələr və gələcək siyasi spekulyasiyalar üçün istifadə oluna bilər. Nazirlik xüsusilə Aİ institutlarının 4 oktyabr 2025-ci il yerli seçkiləri zamanı Tbilisidə baş verən hadisələrə qarşı susqunluğunu və Assosiasiya Sazişi çərçivəsində dialoqun dayandırılmasını tənqid edib.

"Gürcüstan-Aİ münasibətlərinə xələl gətirən, Aİ-yə üzvlük məsələsindən siyasi alət kimi istifadə etməyə yönəlmiş bütün cəhdləri pisləyirik", - deyə XİN bildirib.

Nazirlik əlavə edib ki, Gürcüstan Avropa İttifaqı ilə imzalanmış sazişlərə sadiqdir və ölkənin Avropaya inteqrasiya prosesində Avropa standartlarına yaxınlaşmasını təmin etmək üçün öhdəliklərini vicdanla yerinə yetirməyə davam edir.

Həmçinin "Avronest"in qətnaməsi də rəsmi Tbilisi tərfindən tənqid olunub. Xarici işlər naziri Maka Boçorişvili qurumun qəbul etdiyi son qətnaməyə münasibət bildirərkən deyib ki, "Avronest" gürcü xalqına istiqamət göstərə bilməz.

Nazirin sözlərinə görə, "Avronest" platforması Şərq Tərəfdaşlığı çərçivəsində parlament əməkdaşlığını inkişaf etdirmək üçün yaradılıb və onun məqsədi ölkələrə siyasi istiqamət diktə etmək deyil. "Bizim seçilmiş hökumətimiz var və Gürcüstan xalqı özü qərar verir ki, ölkə hansı istiqamətdə inkişaf etməlidir. Heç bir qurum gürcü cəmiyyətinə demokratik dəyərləri necə tətbiq etməyi diktə edə bilməz", - deyə XİN rəhbəri bildirib.

*Mübariz FEYİZLİ*

## Polşa Rusiya ilə sərhədin möhkəmləndirilməsinə 7 milyon avro xərcləyəcək




Polşa Rusiya ilə sərhəd təhlükəsizliyi sistemini modernləşdirir.

AZƏRTAC xəbər verir ki, bu barədə "İnterfaks" Polşa Sərhəd Mühafizəsinə istinadla məlumat yayıb.

"Layihə, şəbəkə və telekommunikasiya infrastrukturunun modernləşdirilməsi, yeni təhlükəsizlik həllərinin tətbiqi və şəxsi heyət üçün mobil həllərin hazırlanması yolu ilə Avropa İttifaqının Rusiya Federasiyası ilə xarici sərhədində sərhəd mühafizəsinin müşahidə imkanlarını artırmağı hədəfləyir. Bu layihəyə radiorabitə, peyk, telekommunikasiya və mobil avadanlıqların satın alınması, həmçinin təhlükəsizlik sistemi inzibatçıları üçün təlimlər daxildir", - deyə açıqlamada bildirilir.

Ümumi investisiya həcmi təxminən 7 milyon avro təşkil edəcək və Avropa İttifaqı tərəfindən maliyyələşdiriləcək.

Məlumatda deyilir: "Layihə sərhəd nəzarət sistemlərinin səmərəliliyini və təhlükəsizliyini gücləndirəcək, İT infrastrukturunun dayanıqlığını artıracaq, sahə bölmələrində idarəetmə və rabitənin davamlılığını təmin edəcək, təhlükəsizlik sistemlərinin saxlanılması və inkişaf etdirilməsindən məsul personalın ixtisaslarını yüksəldəcək, mobil həllərin tətbiqi ilə sərhəd xidmətinin işini optimallaşdıracaq. Bu fəaliyyətlər eyni vaxtda həyata keçirilən "Belarusla sərhədin monitorinq imkanlarını artırmaq üçün Sərhəd Mühafizəsinin İT sistemlərinin modernləşdirilməsi və genişləndirilməsi" layihəsinə uyğun gəlir.

## Fransada təqaüdçülər aksiyaya çıxırlar

Fransada təqaüdçülər və onların assosiasiyaları noyabrın 6-da hökumətin sosial və maliyyə siyasətinə qarşı ölkə miqyasında etiraz aksiyaları keçirməyi planlaşdırıblar. Aksiyalar 2026-cı ilin dövlət və sosial müdafiə büdcə layihələrinə etiraz olaraq təşkil edilir.

AZƏRTAC xəbər verir ki, Fransanın bir neçə aparıcı həmkarlar ittifaqı - CGT, CFTC, CFE-CGC, "Solidaires", FSU təşkilatları, həmçinin Milli Təqaüdçülər və Yaşlılar İttifaqı bu aksiyaya çağırış edib.

Parisdə nümayişçilərin Senat yaxınlığından hərəkətə başlayaraq "Les İnvalides" meydanına yürüş etmələri planlaşdırılıb. CGT-nin məlumatına görə, əsasən prefekturaların və bələdiyyələrin qarşısında ölkə üzrə 80-ə yaxın aksiya keçiriləcək.

Təşkilatçılar yayımladıqları bəyanatda hökumətin təqaüdçülərə qarşı amansız siyasət apardığını bildiriblər. Onlar vurğulayıblar ki, 2026-cı il üçün təqaüd və sosial minimumların dondurulması, təqaüdçülərə tətbiq edilən 10 faizlik vergi güzəştinin ləğvi və tibbi ödənişlərin (franşizlərin) iki dəfə artırılması qəbuledilməzdir.

Bununla belə, Baş nazir Sebastyən Lökornü bir neçə gün əvvəl bəyan edib ki, hökumət pensiyaların və sosial müavinətlərin dondurulmasından imtina etməyə hazırdır. Lakin digər məsələlər hələ də açıq qalır.

Pensiya islahatının dayandırılması 2026-cı ildə 100 milyon, 2027-ci ildə isə 1,4 milyard avro xərc tələb edəcək. Hökumətin təklif etdiyi əlavə vergi və təqaüdlərin indeksləşdirilməsinin məhdudlaşdırılması variantları parlament komissiyaları tərəfindən rədd edilib.

Qeyd edək ki, bu aksiyalar hökumətin sosial siyasətinə qarşı artan narazılığın göstəricisidir. Təqaüdçülər həm alıcılıq qabiliyyətlərinin azalmasından, həm də ədalətsiz vergi tədbirlərindən narazıdırlar. Hökumət isə büdcə kəsirini azaltmaqla sosial ədalət arasında tarazlıq tapmağa çalışır.



# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## “Qarabağ” tarix yazdı: “Çelsi” ilə rekordlarla yadda qalan oyun



“Qarabağ” UEFA Çempionlar Liqasının (ÇL) əsas mərhələsində İngiltərənin “Çelsi” komandası ilə 2:2 hesablı heç-heçə edərək tarixi nəticəyə imza atıb. Ağdam klubu İngiltərə təmsilçilərinə qarşı keçirdiyi oyunlarda ilk dəfə xal əldə edib.

Matçda hesabı qonaqlar açıblar. 16-cı dəqiqədə Estevao yaxın küncü dəqiq nişan alıb. Buraxılan qoldan sonra hücuma çıxan Ağdam klubu 29-cu dəqiqədə hesabı bərabərləşdirib. Leandro Andrade topu tora qovuşdurub. “Qarabağ” 39-cu dəqiqədə ikinci topu rəqibin qapısından keçirib. Təyin olunan penalti zərbəsini Marko Yankoviç dəqiq yerinə yetirib. İlk hissə bu hesabla başa çatıb. İkinci hissə də qarşılıqlı hücumlar şəraitində keçib. Fasilədən sonra meydana daxil olan Alexandro Qarnaço 53-cü dəqiqədə hesabı bərabərləşdirib. Bu, eyni zamanda, matçda vurulmuş sonuncu qol olub.

Bu nəticədən sonra xallarını 7-yə çatdıran “Qarabağ” 12-ci pilləyə yüksəlib. Eyni xala malik “Çelsi” isə 10-cu sırada qərarlaşıb.

Qeyd edək ki, “Qarabağ” Liqa mərhələsində 5-ci oyununu noyabrın 26-da İtaliyada “Napoli”yə qarşı keçirəcək.



Buna qədər Qurban Qurbanovun yetirmələri ingilis komandaları ilə keçirdikləri 6 matçın hamısında məğlub olub və həmin görüşlərdə cəmi 1 qol vurublar.

Matç həm də bir sıra statistik göstəricilərlə yadda qalıb. “Çelsi” bu qarşılaşmada ÇL tarixində səfərdə ən gənc heyətlərdən birini meydana buraxıb. London təmsilçisinin start “11-liy”inin orta yaşı 23 yaş 97 gün olub. Bu göstərici ilə londonlular yalnız 2009-cu ilin dekabrında “Arsenal”ın “Olimpiakos”la səfər oyunundakı rekordundan (21 yaş 215 gün) geri qalıb.

Eyni zamanda, “Çelsi”nin gənc hücumçusu Estevao da tarixi nəticəyə imza atıb. O, 18 yaş və ya daha gənc oyunçular arasında ardıcıl iki ÇL oyununda qol vuran ilk cənubi amerikalı futbolçu olub.

## Səkkizinci möcüzənin doğuluşu!

### Dənizin üzərində yanan məşəl...

Azərbaycan neftçilərinin dünya neft sənayesinə bəxş etdiyi ilklərdən biri də dənizdə neftçıxarmanın təməlinin qoyulması ilə bağlıdır. Həmin əlamətdar hadisə 76 il bundan əvvəl tarixin bu günündə - 7 noyabr 1949-cu ildə yaşanıb. Məhz bu tarixdə “Neft Daşları”nda ilk quyu fontan vurub.



### Dünya neft sənayesində yeni bir başlanğıc

Azərbaycan neftçiləri dənizdə neftçıxarmaya hələ “Neft Daşları”ndan əvvəl də təşəbbüs göstəriblər. 1803-cü ildə (bəzi məlumatlarda 1798-ci ildə) Bakı sakini Qasımbəy Mənsurbəyov Bibiheybət yaxınlığında, dənizdə, sahildən 18 və 30 metr aralıda iki neft quyusu qazdırıb. Sonralar Xəzər dənizinin qalxması nəticəsində həmin neft kəhrizləri suyun altında qalıb.

“Neft Daşları”nda 942 metr dərinlikdən hasilata start verilməsi isə dünya üçün bir yeni başlanğıc oldu. İnzibati cəhətdən Pirallahı rayonunun tərkibinə daxil olan “Neft Daşları” yatağı Bakı şəhərindən 110 km şərqdə, Pirallahı adasından 50 km cənub-şərqdə - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşir. “Neft Daşları” ərazisində təbii qrifonlar olduğuna görə dənizin səthinə çıxmış daşlar qara rəngə boyanıb, buna görə də əvvəllər bura “Qara Daşlar” adlanıb.

“Qara Daşlar” deyilən ərazidə neft yatağının kəşfi neftçi-geoloq Ağaqurban Əliyevin adı ilə bağlıdır. Ərazidə ilk kəşfiyyat buruğunun yerini isə məşhur neftçi Yusif Səfərov müəyyənləşdirib. 1948-ci ilin dekabrında ilk tikinti dəstəsi “Transportnik” (Nəqliyyatçı) kateri ilə Pirallahı adasından “Qara Daşlar”a göndərilir, burada qazma briqadası üçün 14 m-lik yaşayış yeri hazırlanır və qazma buruğunun tikintisi həyata keçirilir. 1949-cu ilin iyununda birinci kəşfiyyat quyusunun qazılması məqsədilə ömrünü başa vurmuş “Çvanov” gəmisi gətirilir və tələb olunan nöqtədə batırılır. Burada ilk quyunun qazılması qazma ustası Mixail Kaveroçkinlə birlikdə Qurban Abasova həvalə edilmişdi. Onların rəhbərlik etdiyi briqada işə 1949-cu il iyunun 24-də başladı və qazma işləri qısa müddət ərzində tamamlandı.

1951-ci ilin fevralında “Neft Daşları”ndan neftlə dolu ilk tanker yola salınıb. İlk vaxtlarda quyunun gündəlik hasilatı 100 tondan artıq idi. Açıq dənizdə qazılan ilk quyudan neftin fontan vurmasının şərəfinə ərazinin əvvəlki adı “Qara Daşlar” “Neft Daşları” ilə əvəzlənib. Üç il sonra burada dünyada ilk dəfə olaraq estakadalar tikilib. Daha sonra “Möcüzələr adası”nda növbəti quyunun qazılmasına start verilib.

Beləliklə, mavi Xəzərin qoynunda “Qara Daşlar” fəth olunub, estakadalar üzərində “Neft Daşları” şəhəri yaranıb. Prezident İlham Əliyev dünya təcrübəsində birinci dəfə açıq dənizdə neft hasilatına başlanmasını neft sənayesinin inkişafında mühüm hadisə kimi dəyərləndirib. “Məhz Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində dənizdə neftçıxarmanın mümkünlüyü ideyası gerçəkləşdi və dəniz akvatoriyalarının mənimsənilməsi epoxasının başlanğıcı qoyuldu. Bu, eyni zamanda, Azərbaycanın neft mütəxəssislərini ən qabaqcıl mövqelərə çıxardı. Nadir Neft Daşları yatağının kəşfi bir çox dənizlərdə axtarış-kəşfiyyat işlərinə güclü təkan verdi. Hazırda dünyada karbohidrogen hasilatının əsas hissəsi dəniz akvatoriyalarının payına düşür və dənizlərin dərinlikləri fəth olunmaqdadır. Fəxr edirik ki, həmin proseslərin mənbəyi bizim əfsanəvi Neft Daşlarıdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**“Neft Daşları”nda ilk quyunun fontan vurmasından 76 il ötür**



### Ginnesin Rekordlar Kitabına düşən ilk dəniz neft platforması

“Neft Daşları” dünya neftçıxarma tarixində yalnız açıq dənizdə ilk dəfə neft hasilatına başlanılması ilə əlamətdar deyil. Dünyanın 8-ci möcüzəsi kimi tarixə düşən “Neft Daşları”nda həm də ilk dəfə açıq dənizdə estakada dirəkləri üzərində dəniz mədəni tikilib, şəhər salınıb. Ötən illərdə burada meydançalarla birlikdə təxminən 300 kilometr estakada inşa edilib. Dünya təcrübəsində ilk dəfə olaraq dənizdə laylara suvurma metodu da məhz “Neft Daşları” yatağında tətbiq edilib. Bunun da nəticəsində quyuların fontan üsulu ilə işləməsinin müddəti xeyli uzadılıb və layların neftvermə əmsalı əhəmiyyətli dərəcədə artıb.

“Neft Daşları” yatağı istifadəyə veriləndən 2024-cü ilin birinci yarısı da daxil olmaqla “ümumilikdə” buradan 180,2 milyon ton neft hasil olunub. Bəhs olunan dövrdə “Neft Daşları”dan 14,1 milyard kubmetr qaz çıxarılıb.

Onu da qeyd edək ki, “Neft Daşları” Ginnesin Rekordlar Kitabına ilk dəniz neft platforması kimi düşüb. 1999-cu ildə dünya ekranlarına çıxan və Ceyms Bondun sərgüzəştləri silsiləsindən olan “Dünya kifayət deyil” (“The World Is Not Enough”) filminin bəzi kadrları məhz “Neft Daşları”nda lentə alınıb.

### “Neft Daşları”ndan başlayan yeni neft strategiyası

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə dəniz neftinin hasilatı tarixində yeni mərhələ açıb. Heydər Əliyev qarşıya dənizdə neft hasilatının artırılması hədəfini qoyub və Onun təşəbbüsü ilə zəruri infrastruktur qurulmasına başlanıb. Əvvəlcə dənizin 70 metr dərinliyində kəşfiyyat-axtarış işləri aparmağa imkan verən “Xəzər” tipli üzən qazma qurğuları alınıb. Görülən tədbirlər tezliklə “Bahar” və “Bulla-dəniz” yataqlarının açılması ilə nəticələnib. Heydər Əliyev az sonra qarşıya dənizin 200 metr və daha çox dərinliyində işləmək vəzifəsi qoyub və böyük siyasi qətiyyət, iradə bahasına bu məqsədinə də nail olub. 1970-1980-ci illərdə “Şelf” tipli o dövr üçün ən müasir yarımdalma üzən qazma qurğularının respublikaya gətirilməsi dərinsulu sahələrdə zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaradıb. Xəzərin fəth olunması baxımından Heydər Əliyevin müstəsna xidmətləri sayəsində araya-ərsəyə gələn Dərin Dəniz Özülləri Zavodunun inşası da mühüm hadisə idi. Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gəldikdən sonra yeni neft strategiyasını hazırlayaraq “Əsrin müqaviləsi”nin imzalanması ilə onun təməlini qoydu. Böyük siyasətçi bildirirdi ki, müstəqil Azərbaycanın yeni neft strategiyası məhz “Neft Daşları”ndan başlayıb.

Sonrakı mərhələdə “Neft Daşları”na, dəniz neftçilərinə qayğı siyasətini Prezident İlham Əliyev eyni ardıcıllıqla davam etdirib. Dövlətimizin başçısının “Neft Daşları”nın 60 illiyi münasibətilə möcüzələr adasına tarixi səfəri də bu unikal həyata yeni nəfəs verib. Bu səfər “Neft Daşları”nın vətənimiz və xalqımız üçün nə qədər gərəkli olduğunu bir daha nümayiş etdirdi.

*Yeganə BAYRAMOVA*




## Duyğuların bəstəkarı...

Azərbaycan musiqi tarixində elə adlar var ki, onların yaratdıqları melodiyalar təkcə notlarda deyil, xalqın yaddaşında yaşayır. Bu adlardan biri, bəlkə də birinciləri sırasında Tofiq Quliyevin adı var. Onun yaradıcılığı təkcə bir bəstəkarın taleyi deyil, bütöv bir dövrün musiqi salnaməsidir.

Tofiq Quliyev istedadın zəhmətlə, musiqinin ruhla qovuşduğu şəxsiyyətlərdəndir. Onun melodiyaları xalq ruhunun musiqi ifadəsidir. “Sən gəlməz oldun”, “Sevgilim”, “Bəxtəvər oldum”, “Qızılgül”, “Gəl, ey səhər” kimi mahnılar təkcə musiqi əsəri deyil, bir nəsil duyğularının simvoludur.

**Musiqi ilə yaşayan bir ömür**

Tofiq Quliyev həm bəstəkar, həm dirijor, həm də pianoçu kimi Azərbaycan musiqisinə yeni nəfəs gətirib. O, Qərb musiqi mədəniyyəti ilə Şərq lirizmini elə bir ahəngdə birləşdirib ki, ortaya universal, amma milli ruhlu bir musiqi çıxıb. Onun yaradıcılığına qulaq asanda hər kəs öz hissini tapır: sevənlər üçün məhəbbət, Vətən aşiqi üçün qürur, darıxanlar üçün təsəlli hissi...

Ölməz əsərləri ilə milyonlarla insanın bədii zövqünü oxşayan, əbədi rəğbətini qazanan, ürəklərdə möhtəşəm sənətkar heykəlini ucaldan Tofiq Quliyev mənalı və şərəfli həyat yaşayıb. O, 1917-ci il noyabrın 7-də Bakı şəhərində anadan olub, erkən yaşlarından musiqiyə maraq göstərib, xalq musiqisinin gözəlliklərindən ilhamlanıb. Ötən əsrin 30-cu illərində sənət yoluna qədəm qoymuş T.Quliyev Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki məktəbin fortepiano sinfinə daxil olub. Bu təhsil ocağında dərs deyən, həyatdan çox gənc ikən köçmüş, lakin əbədilik qazanmış Asəf Zeynallı onun inkişafına böyük təsir göstərib. Məhz sevimli müəlliminin məsləhəti ilə 14 yaşlı Tofiq Quliyev M.Ə.Sabirin sözlərinə “Məktəbli” mahnısını yazıb və bu zamandan etibarən dostu, görkəmli sənətkar Qara Qarayev ona “Sən bizim bəstəkarımızsan” deyib.

1934-cü ildə musiqiyə olan məhəbbəti T.Quliyevi Azərbaycan Dövlət Konservatoriyasına gətirib çıxarır və o, meyilini təkcə fortepianoya salmaqla kifayətlənmir, eyni zamanda, dirijorluq fakültəsinə daxil olur. Hələ konservatoriyada oxuduğu günlərdə - 1935-ci ildə Azərbaycan Dövlət Dram Teatrında dirijorluq fəaliyyətinə başlayır, sonralar müxtəlif musiqi kollektivlərinə dirijor kimi rəhbərlik edir.

O dövrün gənclərin musiqiyə gəlişi və ilk uğurlu addımları dahi Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Məhz bu qüdrətli sənətkar bir çox insanların musiqiçi və şəxsiyyət kimi püxtələşməsində əvəzsiz rol oynayıb. T.Quliyev “mənəvi ata” saydığı dahi ustadın başladığı sənət-yaradıcılıq yolunu uğurla davam etdirib və illər ötdükcə, Azərbaycan musiqisinin ləyaqətli təmsilçisinə çevrilib. Məhz Ü.Hacıbəylinin və böyük sənətkar Bülbülün rəhbərliyi ilə gənc musiqiçinin fəaliyyət sahəsi şaxələnir. O, konservatoriyada təşkil edilmiş Elmi-Tədqiqat Musiqi Kabinəsinin işində fəal iştirak edib. 1936-cı ildə T.Quliyev tarzən Mansur Mansurovun ifasında “Rast” və “Segah-Zabul” muğam dəsgahlarını nota köçürüb və onlar milli musiqi tarixində ilk dəfə olaraq nəşr edilib. Bu nəcib təşəbbüsə musiqimizin atası Üzeyir Hacıbəyli o vaxt belə qiymət verib: “Muğamların nota yazılması Azərbaycan musiqi həyatında böyük çevriliş yaratmaqla incəsənətimizə böyük xidmətdir”.

Sonralar da musiqi folklorunun toplanılması sahəsində mühüm işlər görmüş bəstəkar 1955-ci ildə “Azərbaycan xalq rəqsləri”ni fortepiano üçün işləmiş, “Azərbaycan xalq mahnıları” topluları üçün çoxsaylı mahnıları nota köçürmüşdür. Xalq musiqi incilərinin mükəmməl nümunələri olan “Evləri var xana-xana” və “Qoy gülüm gəlsin, ay, nənə” mahnılarını səs və simfonik orkestr üçün işləyib. Bəstəkar həm də hind, bolqar, ərəb mahnılarının böyük bədii ustalıqla səs və fortepiano üçün variantlarını yaradıb.

Sənətkarın müharibə illərində bəstələdiyi bir sıra mahnıları - “Azərbaycan diviziyası”, “Vətən haqqında mahnı”, “Azərbaycan”, “Döyüşçülərin mahnısı” və s. insanların təmiz hisslərini, vətənə məhəbbətini tərənnüm edir, onlarda ruh yüksəkliyi yaradır.

1939-cu ildə Tofiq Quliyev həm də teatr musiqi sahəsinə müraciət edir və M.Qorki adına Gənc Tamaşaçılar Teatrının “Babək” tamaşası üçün musiqi bəstələyir. Sonralar müxtəlif teatrlarla əməkdaşlıq edən bəstəkar, bir çox pyeslərə, o cümlədən, U.Şekspirin “On ikinci gecə”, C.Cabbarlının “Aydın” və “Yaşar”, N.Hikmətin “Qəribə adam” və s. əsərlərinə musiqi yazır. Bu tamaşalar üçün bəstələnmiş mahnılar tez bir zamanda yayılır, dinləyicilərin dilinin əzbəri olur.

Yaradıcılığının yetkin və kamil dövründə böyük sənətkarın şərəfli əməyi Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. 1997-ci ildə o, “İstiqlal ordeni” ilə təltif edilib. 2000-ci ildə dünyasını dəyişən Tofiq Quliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən sənətkarın yaşadığı binaya xatirə lövhəsi vurulur, Bakının küçələrindən birinə və 12 nömrəli musiqi məktəbinə bəstəkarın adı verilib. Prezident İlham Əliyevin Tofiq Quliyevin 100 illik yubileyinin keçirilməsi haqqında müvafiq sərəncamı görkəmli sənətkarın xatirəsinə dərin hörmət və ehtiramın təcəssümü kimi qiymətləndirilib, ictimaiyyətimiz tərəfindən rəğbətlə qarşılanıb.

Böyük sənət fədaisi, əsl vətənpərvər Tofiq Quliyev bütün qüvvə və istedadını xalqına sərf edib, hörmət və ehtiram qazanıb. Adı musiqi tariximizə böyük hərflərlə həkk olunmuş müdrik sənətkarın bənzərsiz yaradıcılığı xalqımız tərəfindən həmişə yüksək tutulacaq.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4962
Sifariş: 2262
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova